# İSTİFADƏÇİ TƏLİMATI

**Hörmətli istifadəçi,**

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə və Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə sənəd qəbulu *elektron formada* həyata keçirilir.

Milli Müdafiə Universitetinin elektron xidmətlərindən faydalanmaq istəyən hər bir istifadəçinin (zabit, gizir, MAHHXHQ və digər namizədlərin) müvafiq sənəd qəbulu portalında şəxsi kabineti olmalıdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilə bilər.

Müraciət etmək istəyən namizəd Milli Müdafiə Universitetinin rəsmi saytının (mmu.edu.az) **"Təhsil müəssisələrinə qəbul"** bölməsindən təhsil almaq istədiyi müəssisəni seçərək, elektron sənəd qəbulu portalına keçid etməlidir.

**Mərhələ 1 – Elektron sənəd qəbulu portalında qeydiyyat və sənədlərin portala daxil edilməsi**

Elektron sənəd qəbulu portalına daxil olan namizəd ilk növbədə aşağıda qeyd olunmuş **"İstifadəçi təlimatı"** ilə tanış olmalıdır:

- qeydiyyatdan keçmək iştəyən namizəd şəxsi kabinetini yaratmalıdır. Bunun üçün elektron sənəd qəbulu portalının **"Baş səhifə"**sində olan **"Qeydiyyat"** bölməsinə keçid edərək, açılmış pəncərədə **"İstifadəçi qaydaları"** ilə tanış olduqdan sonra "**Qəbul edirəm"** düyməsini sıxmalıdır;
- növbəti səhifədə şəxsi kabinet yaratmaq üçün müvafiq xanalar doldurularaq **"Kabinet yarat"** düyməsi sıxılmalıdır;
- qeydiyyat zamanı istifadə etdiyiniz e-poçt ünvanına göndərilmiş linkə daxil olaraq şəxsi kabinet aktivləşdirilməlidir. Linkə yalnız bir dəfə daxil olmaq mümkündür. Əks təqdirdə məlumatları şəxsi kabinetdə **"Profilini redaktə et"** bölməsindən daxil etmək olar;
- linkə daxil olduqdan sonra açılan pəncərədə müvafiq xanalar doldurulmalı və sonda **"Kabinet yarat"** düyməsi sıxılmalıdır. Bu mərhələdə namizədin "Şəxsi kabineti" yaradılmış hesab olunur;
- yeni açılan səhifədə **"Sənəd əlavə et"** düyməsi sıxılaraq müvafiq sənədlərin elektron forması kabinetə əlavə edildikdən sonra **"Göndər"** düyməsi sıxılmalıdır;
- şəxsi kabinetində olan **"Sənəd əlavə et"** bölməsində qeyd olunmuş sənədləri elektron formada daxil etdikdən sonra həmin sənədlərin əsli və ya surəti ardıcıllıqla yığılaraq qovluğa yerləşdirilməlidir.

**Mərhələ 2 – Tibbi müayinə**

Bu mərhələdə namizəd Müdafiə Nazirliyinin poliklinikaları tərəfindən keçiriləcək tibbi müayinələrdə iştirak etməlidir. Tibbi müayinənin yeri və tarixi barədə məlumat şəxsi kabinetdə olan **"Məktub qutusu"** bölməsinə göndəriləcəkdir.

Məlumatın vaxtında əldə olunması üçün **"Məktub qutusu"** bölməsi mütəmadi olaraq yoxlanılmalıdır.

Namizəd **"Məktub qutusu"** bölməsinə daxil olmuş məlumata əsasən toplanmış sənədlər qovluğu ilə qeyd olunmuş ünvana yaxınlaşmalı, burada ona təqdim olunacaq "Sağlamlıq haqqında arayış"ın (Forma-7) tələblərinə uyğun tibbi müayinələrdən keçməlidir.

Tibbi müayinə bitdikdən sonra şəxsi kabinetdə olan **"Bütün sənədlərə bax"** bölməsinə keçid edərək **"Sənəd qovluğunu redaktə et"** bölməsində **"Forma-7 əlavə et"** düyməsi sıxılmalıdır. Açılan səhifədə sağlamlıq haqqında arayış (Forma-7) qeyd olunan bölməyə elektron formada daxil edilməli və **"Forma-7 əlavə edildi"** seçimini edərək "**Yadda saxla"** düyməsi sıxılmalıdır. Sənədin əsli sənədlər qovluğuna yerləşdirilməlidir.

**Mərhələ 3 – Sənədlər qovluğunun Milli Müdafiə Universitetinə göndərilməsi**

Bu mərhələdə namizəd istənilən poçt şöbəsinə yaxınlaşmalı və sənədlər qovluğunu **"Məktub qutusu"** bölməsinə göndəriləcək bildirişdə qeyd olunmuş poçt ünvanına göndərməlidir. Bunun üçün **"Məktub qutusu"** bölməsi mütəmadi olaraq yoxlanılmalıdır.